# Zəngəzur tarixi Azərbaycan torpağıdır

**2020-ci il sentyabrın 27-də Ermənistanın növbəti irimiqyaslı hərbi əməliyyatlara başlamasına, ordumuzun mövqelərinə və mülki yaşayış məntəqələrinə zərbələr endirməsinə cavab olaraq müzəffər Azərbaycan Ordusu əks-hücum əməliyyatına start verdi, sonradan "dəmir yumruq" adını alan bu əməliyyat Vətən müharibəsinə çevrildi.**



Ermənistan ordusu və Qarabağdakı separatçı-təxribatçı erməni silahlı birləşmələri qəhrəman Azərbaycan Silahlı Qüvvələrinin qarşısında cəmi 44 gün davam gətirə bildi. 2020-ci il noyabrın 10-da Azərbaycan Prezidenti İlham Əliyev, Ermənistanın baş naziri Nikol Paşinyan və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Ermənistanın təslim olmasından sonra videokonfrans formatında üçtərəfli Bəyanat imzaladılar. Döyüş meydanında əldə edilmiş parlaq qələbədən sonrakı 20 gün ərzində 3 rayon - noyabrın 20-də Ağdam, noyabrın 25-də Kəlbəcər, dekabrın 1-də isə Laçın Azərbaycana təhvil verildi.

Azərbaycan 2022-ci ilin martında beynəlxalq hüquq normalarına uyğun olaraq Ermənistana beş baza prinsipi əsasında sülh danışıqlarına başlamağı təklif etdi. Bu prinsiplər aşağıdakılardır:

- Dövlətlərin bir-birinin suverenliyi, ərazi bütövlüyü, beynəlxalq sərhədlərinin toxunulmazlığı və siyasi müstəqilliyini qarşılıqlı şəkildə tanıması;

- Dövlətlərin bir-birinə qarşı ərazi iddialarının olmamasının qarşılıqlı təsdiqi və gələcəkdə belə bir iddianın qaldırılmayacağına dair hüquqi öhdəliyin götürülməsi;

- Dövlətlərarası münasibətlərdə bir-birinin təhlükəsizliyinə hədə törətməkdən, siyasi müstəqillik və ərazi bütövlüyünə qarşı hədə və gücdən istifadə etməkdən, habelə BMT Nizamnaməsinin məqsədlərinə uyğun olmayan digər hallardan çəkinmək;

- Dövlət sərhədinin delimitasiyası və demarkasiyası, diplomatik münasibətlərin qurulması;

- Nəqliyyat və kommunikasiyaların açılışı, digər müvafiq kommunikasiyaların qurulması və qarşılıqlı maraq doğuran digər sahələrdə əməkdaşlığın qurulması.

2022-ci il oktyabrın 6-da Praqada Azərbaycan Prezidenti İlham Əliyev, Fransa Prezidenti Emmanuel Makron, Ermənistanın baş naziri Nikol Paşinyan və Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel arasında keçirilmiş görüşdən sonra verilən bəyanatda deyilirdi ki, Azərbaycan və Ermənistan BMT-nin Nizamnaməsinə və bir-birinin ərazi bütövlüyünü və suverenliyini tanıyan 1991-ci il Almatı Bəyannaməsinə sadiqliklərini təsdiq edirlər. Vətən müharibəsindən sonra yaranmış yeni reallıqlar və Azərbaycan dövlətinin iki dövlət arasında münasibətlərin normallaşdırılması istiqamətində xoş məram nümayiş etdirməsi sülh müqaviləsinin imzalanması üçün tarixi şans yarandığını göstərir. Prezident İlham Əliyev mediaya müsahibəsində də qeyd etmişdi ki, Ermənistandan xoş məram olarsa, sülh müqaviləsi ilin sonunadək imzalana bilər: "Vaxt keçir, bizim təşəbbüslər heç də asan irəliləmir, xarici işlər nazirlərinin birinci görüşü konkret nəticələr verməsə də, hesab edirəm ki, bu, müsbət addımdır. Düşünürəm ki, yaxın vaxtlarda qərar qəbul edilərsə, iki ölkənin işçi qrupları sülh müqaviləsinin mətni üzərində işləməyə başlayacaqlar, biz ilin sonunadək razılaşmaya nail ola bilərik".

Təəssüf ki, Ermənistan qeyri-konstruktiv mövqe tutaraq sülh müqaviləsinin imzalanmasından, dövlətlərarası münasibətlərin nizamlanmasından hər vasitə ilə yayınır. Ermənistan 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatda, 2021-ci il yanvarın 11-də Moskvada, noyabrın 26-da Soçidə, dekabrın 14-də Brüsseldə keçirilən üçtərəfli görüşlərdə əldə olunmuş razılaşmaların reallaşdırılması istiqamətində də ciddi addım atmadı, əksinə, Qarabağdakı terrorçu-separatçı silahlı birləşmələrə hərtərəfli dəstək verdi, silahlı qüvvələrini Azərbaycan ərazisindən çıxarmadı. 2023-cü il sentyabrın 19-da başlayan antiterror əməliyyatı sayəsində Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini bərpa etdi.

Postmünaqişə dövründə Azərbaycan və Ermənistan sülh danışıqlarını, mətn üzrə mübadilələri davam etdirdilər. Ermənistanla sülh müqaviləsi layihəsi 17 maddə və preambuladan ibarətdir. Preambula və 15 maddə üzrə, demək olar, mətnlər tam razılaşdırılıb. Qalan 2 maddə üzrə açıq qalan suallarla bağlı işlər davam edir. Tərəflər iki bənd üzrə konsensusa gələ bilmirlər: Avropa İttifaqı müşahidəçilərinin Ermənistandan çıxarılması, beynəlxalq məhkəmələrdə qarşılıqlı ittihamların geri götürülməsi.

Prezident İlham Əliyev yanvarın 7-də yerli televiziya kanallarına müsahibəsində bildirmişdir ki, biz sülh istəyirik, biz istəyirik ki, artıq müharibə səhifəsi bağlansın: "Ümid edirəm ki, sülh müqaviləsi ilə bağlı bizim bütün şərtlərimiz də qəbul ediləcək. Çünki bu şərtlərdə hər hansı bir fövqəladə məsələ yoxdur. Minsk qrupunun ləğv edilməsi, konstitusiyanın dəyişdirilməsi - bunlarsız sülh müqaviləsi mümkün deyil. Əgər Ermənistana sülh müqaviləsi lazım deyilsə, bizə də lazım deyil. Bu, imzalanmadan da biz yaşaya və öz siyasətimizi apara bilərik. Yəni mən yenə də Ermənistan tərəfinə məsləhət görərdim ki, hər şeyi yaxşı ölçüb-biçsin, o cümlədən dünyadakı geosiyasi dəyişiklikləri. Onların yaxın dostları siyasi səhnədən biabırçılıqla silinirlər".

Ötən dörd ildə aparılan danışıqlar, keçirilən görüşlər göstərir ki, Ermənistan hələ də revanşist fikirlərlə yaşayır və faktiki olaraq bölgə üçün ciddi təhdid mənbəyidir. Ermənistan öz konstitusiyasını dəyişməlidir, çünki onun konstitusiyasında Azərbaycana ərazi iddialarının yer aldığı Müstəqillik Bəyannaməsinə istinad var, burada keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti Ermənistanın bir hissəsi elan olunur. Ona görə də konstitusiyanın dəyişdirilməsi Azərbaycan dövlətinin irəli sürdüyü obyektiv şərtdir. Digər şərt ATƏT-in Minsk qrupunun ləğvidir. Ermənistan artıq Qarabağı Azərbaycanın tərkib hissəsi olaraq tanıyıb, Minsk qrupu isə Qarabağ məsələsinin həlli üçün yaradılmışdı, deməli, Ermənistan onun ləğv edilməsi üçün ölkəmizlə birlikdə rəsmən ATƏT-ə müraciət etməlidir. 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatdan sonra Azərbaycan Minsk qrupunun ləğvi məsələsini dəfələrlə gündəmə gətirmiş və həmsədrlərlə görüşlərə razılıq verməmişdir. Ermənistanın baş naziri bunu bildiyi halda onun bu günlərdə söylədiyi fikirlər təəccüb doğurur. Paşinyan demişdir: "Əgər münaqişə yoxdursa, münaqişənin həlli ilə məşğul olan formatın olmasının nə mənası var? Biz bu mövqeyi başa düşürük, amma əmin olmaq istəyirik ki, Azərbaycan da bu məsələyə eyni məntiqlə yanaşır". Sual olunur: Bütün fəaliyyəti dövründə işğalçı Ermənistanın yanında dayanan, onun maraqlarının müdafiəçisinə çevrilən, ədalətsiz mövqe tutan Minsk qrupunun qalması faktı ilə Azərbaycan dövləti razılaşa bilərmi? Qətiyyən yox! Zənnimcə, şərhə ehtiyac qalmır.

Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyov ötən ilin avqustunda "Azadlıq" radiosuna bildirmişdi ki, tərəflər Azərbaycanın qərb hissəsini Naxçıvanla birləşdirən marşrut da daxil olmaqla nəqliyyat kommunikasiyalarına dair maddənin sülh müqaviləsi layihəsindən çıxarılması barədə razılığa gəliblər. Bu məsələnin sonrakı mərhələdə həlli ilə bağlı razılıq əldə olunub. Elçin Əmirbəyov həmçinin sülh müqaviləsinin imzalanmasına Bakının əsas əngəl saydığı məsələni bir daha səsləndirmişdi -- Ermənistan Konstitusiyasına dəyişikliklər olunmalı, Azərbaycana və Türkiyəyə qarşı ərazi iddiaları çıxarılmalıdır. Deməli, Bakı ilə sülh müqaviləsi imzalanmadan İrəvan kommunikasiyaların və sərhədlərin, o cümlədən qardaş Türkiyə ilə sərhədlərin açılmasına ümid edə bilməz.

Azərbaycan və Rusiya prezidentlərinin, Ermənistanın baş naziri Nikol Paşinyanın imzaladığı 10 noyabr 2020-ci il tarixli Bəyanatın 9-cu bəndində deyilir: "Bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa edilir. Ermənistan Respublikası vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədi ilə Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir. Nəqliyyat əlaqəsi üzrə nəzarəti Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin Sərhəd Xidmətinin orqanları həyata keçirir.

Tərəflərin razılığı əsasında Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası təmin ediləcək".

Nikol Paşinyan kapitulyasiya aktına imza atmaqla ölkəsinin məğlubiyyətini rəsmiləşdirdi və müəyyən öhdəliklər götürdü. Lakin zaman keçdikcə proseslər fərqli məcrada inkişaf etməyə başladı. ABŞ, Avropa İttifaqı və Fransa Cənubi Qafqaz uğrunda gedən geosiyasi mübarizəni genişləndirərək Ermənistanı təsir altına saldılar, onun xarici siyasətini öz maraqları baxımından yönləndirməyə başladılar. Nikol Paşinyan göstərilən dəstək sayəsində dəhlizin açılmasına hər vasitə ilə əngəl törədir, vaxtı uzatmağa çalışır. Zəngəzur dəhlizinə nəzarətin Rusiya Federal Təhlükəsizlik Xidmətinin Sərhəd Xidmətinə keçməsi ilə bağlı Ermənistanın narahatlığına anlayışla yanaşırıq, ancaq Ermənistan bizə öz ərazimizə, Naxçıvan Muxtar Respublikasına sərbəst keçid imkanı yaratmalıdır. Asiya və Avropanı birləşdirən Zəngəzur koridorunun regional və interkontinental müstəvidə əhəmiyyətini dərk etdikdə ermənilər anlayacaqlar ki, bu dəhliz Azərbaycanla yanaşı, Ermənistan üçün də geniş perspektivlər açır. Bu, Ermənistanın təcrid vəziyyətindən xilas olması və regiona sızmağa çalışan digər dövlətlərin təsirindən çıxaraq müstəqil siyasət yeritməsi üçün yeganə məqbul yoldur.

Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan ölkənin əsas ərazisindən niyə və necə ayrı salınmışdır? Bu torpaqların Zəngəzur dəhlizini açmaq istəməyən, Naxçıvana keçidimizə əngəl törədən ermənilərə bir aidiyyəti olubmu? Gəlin tarixi faktlar əsasında bu məsələyə nəzər salaq.

Ərəb tarixçisi Təbəri və başqaları VII əsrin 30-cu illərində ərəb sərkərdələrinin Azərbaycana ilk yürüşləri və burada yerli türklərlə döyüşlər aparması haqqında ətraflı məlumatlar vermişlər. 639-642-ci illərdə ərəb qoşunları Muğan və Şirvanı, 646-cı ildə Arana hücum edərək Beyləqan və Bərdə şəhərlərini ələ keçirmiş, 705-ci ildə Albaniyada Mehranilər sülaləsinin hakimiyyətinə son qoymuşlar. Zəngəzur ərazisi 1065-ci ildən böyük Səlcuq imperiyasının, 1395-ci ildən Teymurilər imperiyasının, daha sonra Qaraqoyunlu (1410-1468), Ağqoyunlu (1468-1502) və Səfəvilər dövlətlərinin, Rusiya imperiyası dövründə isə Yelizavetpol quberniyasının tərkibinə daxil olmuşdur.

1905-1907-ci və 1914-1920-ci illərdə silahlı erməni dəstələrinin törətdiyi qırğınlar nəticəsində Zəngəzur mahalında 115 müsəlman kəndi Yer üzündən silinmiş, minlərlə insan qətlə yetirilmişdir.

1918-ci ildə erməni siyasətçiləri dövlət yaratmaq məqsədilə qarşıya qoyduqları məqsədlərə çatmaq üçün siyasi müttəfiqlər və himayədarlar axtarırdılar. Gürcüstanla müharibədə məğlub olan ermənilər ümid edirdilər ki, iddia etdikləri torpaqları ələ keçirmək üçün İngiltərə hökuməti onlara kömək göstərə bilər, lakin az sonra anladılar ki, Britaniya Cənubi Qafqaza erməni dövləti yaratmaq üçün deyil, öz geosiyasi məqsədlərini reallaşdırmaq niyyəti ilə daxil olmuşdur.

Daşnakların ağlasığmaz ərazi iddialarını reallaşdırmaq üçün Paris Sülh Konfransına təqdim etdikləri məktubda deyilirdi: "Gürcülər tərəfindən aldadılmış və tərk olunmuş, türklərlə birləşmiş tatarların xəyanət etdiyi ermənilər Rusiyanın darmadağın olunmasından və Brest-Litovsk müqaviləsinin imzalanmasından sonra öz hərbi hissələri (30 min əsgər) ilə cəbhədə yeddi ay ərzində türklərin hücumunun qarşısını almışdır... Kilikiyadan, özünün Mersin və Aysa kimi təbii limanlarından məhrum edilən erməni xalqı Aralıq dənizi ilə əlaqə, nəfəs almaq imkanı olmadan ağciyərindən də məhrum olar və öz kədəri ilə saralıb-solmağa məruz qalar. Ermənilərin həyatı və gələcəyi Aralıq dənizi ilə bağlıdır..." Bu məktuba daşnakların Parisdə tələsik çap etdirdikləri xəyali "böyük Ermənistan" xəritəsi də əlavə olunmuşdu.

Türkiyə ərazisinin Aralıq dənizinə və Qara dənizə qədər uzanan böyük bir hissəsi, Axalkalaki, Borçalı qəzasının Xram çayına qədər olan torpaqları, eləcə də Gəncə şəhəri ermənilərin saxta xəritəsinə daxil edilmişdi. Təbii ki, heç bir əsası olmayan fantastik iddialar və saxta xəritə böyük dövlətlərin nəzərində dəyər kəsb edə bilməzdi, bu səbəbdən də ermənilərin planları ciddi narazılıqla qarşılandı.

*(ardı var)*

***Həsən HƏSƏNOV,***
***Əməkdar jurnalist,***
***tarixçi***

Azərbaycan.- 2025.- 5 fevral (№25).- S.6.